***Ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamına qarşılıqlı etimad, inam və dəstəyə əsaslanan Azərbaycan–Türkiyə münasibətləri bu gün qardaş ölkə prezidentlərinin rəhbərliyi ilə müttəfiqlik və strateji tərəfdaşlıq münasibətlərinin ən yüksək səviyyəsinə çatmışdır. Azərbaycan –Türkiyə münasibətləri qardaşlıq, dostluq və strateji tərəfdaşlıq əlaqələrinə böyük nümunədir və bu münasibətlərin səviyyəsi hər iki dövlətin qürur mənbəyidir. Dənizin üzərində inşa edilən nəhəng layihə – Rize – Artvin Hava Limanının iki qardaş ölkə rəhbəri – Rəcəb Tayyib Ərdoğan və İlham Əliyevin iştirakı ilə açılışı Azərbaycan – Türkiyə münasibətlərinin ən yüksək səviyyədə olduğunu və ardıcıl inkişaf etdiyini bir daha təsdiqləyir.***

***Biz həm dostuq, həm qardaşıq, həm də artıq rəsmən müttəfiqik.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

# Azərbaycan–Türkiyə münasibətləri regionda sülhə və təhlükəsizliyə xidmət edir



Hər iki ölkənin dövlət və hökumət başçılarının, eləcə də iqtisadiyyat, ticarət, elm, təhsil, mədəniyyət və digər nazirlərinin qarşılıqlı səfərləri ikitərəfli əməkdaşlığın inkişafında mühüm rol oynayır. İki ölkə arasında bütün sahələrdə uğurla inkişaf edən əlaqələr qardaşlıq və tərəfdaşlıq münasibətlərinin yüksək səviyyəyə qalxmasına öz töhfəsini verir. Ümumilikdə, Türkiyə ilə strateji tərəfdaşlığın daha da dərinləşdirilməsi hər iki ölkə üçün böyük əhəmiyyət kəsb edir. Bakı–Tbilisi–Ərzurum marşrutu ilə təbii qazın Türkiyəyə nəqli üçün qaz kəmərinin çəkilməsi qərarı və bu layihənin həyata keçirilməsi, Şimal–Cənub enerji layihəsinin mühüm rolu, eləcə də Bakı–Tbilisi–Qars dəmir yolu layihəsi regionda sülh və təhlükəsizliyə töhfə verməklə yanaşı, hər iki ölkə xalqlarının rifah halının yaxşılaşdırılması baxımından da böyük əhəmiyyət daşıyır. Əsası ulu öndər Heydər Əliyevin qoyduğu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi yeni layihələrin, təşəbbüslərin həyata keçirilməsinə əlverişli şərait yaradır. Strateji enerji layihələrinin həyata keçirilməsi bu gün hər iki ölkənin regionda və dünyada nüfuzunu artırır. Eyni zamanda, Avropanın enerji təhlükəsizliyinə böyük töhvə verən layihələr onilliklər boyu Azərbaycanın və Türkiyənin iqtisadi və digər maraqlarını təmin etmək üçün çox ciddi bir vasitədir.

***(ardı 3-cü səhifədə)***

# Azərbaycan–Türkiyə münasibətləri regionda sülhə və təhlükəsizliyə xidmət edir

***Türkiyənin ikiəsrlik demokratiya və inkişaf yolu öz tarixi, həm də bütün dost və qardaşları, bölgəsi üçün böyük bir uğur hekayəsidir.***

***Rəcəb Tayyib Ərdoğan***
***Türkiyə Respublikasının Prezidenti***



*(əvvəli 1-ci səhifədə)*

Türkiyə və Azərbaycan regional əməkdaşlıq prosesinin fəal iştirakçılarıdır. Ekspertlər bildirirlər ki, hər iki ölkə iqtisadi və enerji imkanlarından, həmçinin geosiyasi mövqeyindən ikitərəfli və regional əməkdaşlığı genişləndirmək üçün səmərəli istifadə edir. İzmirdə "Star" zavodunun fəaliyyət göstərməsi iki ölkə arasında qardaşlıq bağlarını daha da gücləndirir və Avrasiya regionunda enerji və nəqliyyat marşrutlarını yenidən xəritələşdirir. Xatırladaq ki, "Star" zavodun ümumi neft emalı gücü 10 milyon tondur və Azərbaycanın dövlət şirkəti – SOCAR müəssisənin əsas xammal tədarükçüsüdür. Zavod Türkiyənin neft-kimya idxalından asılılığının əhəmiyyətli dərəcədə azalmasına öz töhfəsini verir. Təbii ki, bütün bu layihələr Azərbaycanın, Türkiyənin və digər ölkələrin enerji təhlükəsizliyinin təminatıdır. Eyni zamanda, iki ölkə arasında genişlənən əməkdaşlıq və strateji tərəfdaşlıq regionda sabitliyin göstəricisinə çevrilmişdir. Azərbaycan ilə qardaş Türkiyə arasında iqtisadi əlaqələrin yüksək səviyyədə inkişafı ilk növbədə onu deməyə əsas verir ki, iki ölkə arasındakı qırılmaz əlaqələr regionun tərəqqisində əvəzsiz rol oynayır.

Əlbəttə, iki ölkə liderlərinin arasındakı güclü dostluq və qardaşlıq əlaqələrinin olması Azərbaycan–Türkiyə münasibətlərinin daha intensiv şəkildə inkişaf etməsinə şərait yaradır. Hər iki liderin qarşılıqlı səfərlərini buna nümunə göstərmək olar. Məsələn, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Qarabağın hava qapısı olan Füzuli Beynəlxalq Hava Limanının açılışında iştirak etmişdi. Füzuliyə tarixi səfərində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölkəmizə həm siyasi, həm də mənəvi dəstəyini nümayiş etdirmiş və Azərbaycanın hər zaman yanında olacağını bildirmişdi. Eyni qardaş dəstəyini Azərbaycan Prezidenti İlham Əliyev də nümayiş etdirdi. Mayın 14-də Rize–Artvin Hava Limanının açılışında iştirak etməklə Prezident İlham Əliyev Türkiyənin hər uğuruna sevindiyini vurğulamaqla yanaşı, qardaş dəstəyini də göstərdi.

Əlamətdar haldır ki, hava limanına ilk enişi mayın 14-də Prezident Rəcəb Tayyib Ərdoğanı və Azərbaycan Prezidenti İlham Əliyevi gətirən təyyarələr etdi. Qeyd edək ki, Rize mərkəzindən 34 və Artvindən 125 kilometr məsafədə yerləşən, müasir tipli böyük təyyarələri qəbul etmək imkanında olan yeni hava limanı müasir standartlara tam uyğundur. Yeni hava limanı dənizə paralel tikilmiş 3045 metr uzunluğunda uçuş-enmə zolağına malikdir. Ümumi sahəsi 2 milyon 800 min kvadratmetr olan Rize–Artvin Hava Limanı Türkiyənin iqtisadiyyatına, o cümlədən turizm sahəsindəki yeni layihələrin həyata keçirilməsinə böyük töhfələr verəcək. Xatırladaq ki, hazırda Türkiyədə mövcud olan 58 hava limanından 37-də beynəlxalq uçuşlar həyata keçirilir. Rize–Artvin Hava Limanının bu sıraya daxil olması Qara dəniz sahili ölkələri ilə hava nəqliyyatı və gəmi-bərələrlə turizm daşımaları üçün böyük imkanlar yaradır.

Əlbəttə, Türkiyənin uğuru həm də Azərbaycanın uğurudur. Qardaş ölkədə reallaşdırılan hər bir layihə Azərbaycanda böyük məmnunluqla qarşılanır. Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi dövründə Türkiyə dünyanın aparıcı ölkələrindən birinə çevrildi və hazırda bütün sahələrdə yüksək tərəqqi nümayiş etdirir. Hava limanının təntənəli açılış mərasimində coşquyla qarşılanan çıxışında Prezident İlham Əliyev Türkiyənin gündən-günə gücləndiyini, sürətlə inkişaf etdiyini vurğulayaraq əlavə dedi ki, qardaş ölkə bu gün nəinki dünya miqyasında böyük güc mərkəzinə çevrilib, söz sahibi olmuşdur, eyni zamanda, ölkə içində də böyük layihələr icra etməyə qadirdir. Türkiyədə görülən bütün işlərin mərkəzində insan amilinin, dövlət siyasətinin dayandığını diqqətə çatdıran Prezident İlham Əliyev əlavə etdi ki, açılış mərasimində Azərbaycan Prezidentinin iştirakı Türkiyə–Azərbaycan birliyinin növbəti təzahürüdür.

Ölkə başçısı çıxışında bir daha dünyaya önəmli mesajlar ünvanladı. Prezident İlham Əliyev Azərbaycanın və Türkiyənin hər zaman bir yerdə olduğunu diqqətə çatdırdı: "Bu gün də biz bir yerdəyik, Qarabağın bərpası işində bərabər, çiyin-çiyinə çalışırıq. Bir çox Türkiyə şirkətləri, o cümlədən xariqə adlandırılan bu gözəl hava limanını inşa edən şirkət də Qarabağda bərpa işləri ilə məşğuldur. Bizim minlərlə türk qardaşımız bu gün Azərbaycanda Qarabağın bərpası ilə bağlı öz işini görür, öz sözünü deyir".

Prezident İlham Əliyevdən ikinci mühüm mesaj Qarabağ zəfəri ilə bağlı oldu. Ölkə başçısı İkinci Qarabağ savaşının Türkiyə və Azərbaycanın müştərək,ortaq şanlı tarixi olduğunu bəyan etdi. "Otuzillik işğala son qoyduq və savaşın ilk günündə hörmətli Prezident, qardaşım Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır" deməsi bir çoxları üçün ciddi mesaj oldu. Savaşın son dəqiqəsinə qədər–Şuşa şəhərində bayrağımız ucalana qədər Türkiyə bizim arxamızda idi, bizə arxa idi, dayaq idi və Azərbaycan xalqı heç vaxt bu qardaşlığı unutmayacaq",– deyən Prezident İlham Əliyev qardaş ölkələrin Qarabağın bərpası işində bərabər, çiyin-çiyinə çalışdığını, bir çox Türkiyə şirkətlərinin Qarabağda bərpa işləri ilə məşğul olduğunu diqqətə çatdırdı. Bu gün heç kimə sirr deyil ki, müttəfiqlik haqqında Şuşa Bəyannaməsi Qars müqaviləsinə, Dostluq və Əməkdaşlıq haqqında Müqaviləyə, Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım haqqında müqaviləyə əsaslanaraq Azərbaycan-Türkiyə münasibətlərini daha da möhkəmləndirdi, iki xalqın tarix, soykök, din, dil, mədəniyyət birliyinə söykəndiyini bir daha təsdiqlədi, ölkələrimiz arasında dostluq və qardaşlığın nümunəvi xarakterini bütün dünyaya nümayiş etdirdi.

Bir sözlə, Azərbaycanla Türkiyənin regonda yeni güc mərkəzinə çevrilməsi artıq reallıqdır. İki ölkə son illər xarici siyasətdə tamamilə eyni mövqedən çıxış edir və bütün məsələlərdə yekdil və qətiyyətli mövqe sərgiləyir. Son illərdə iki qardaş ölkənin dövlət başçılarının təşəbbüsləri və moderatorluğu ilə bir sıra nəhəng layihələr reallaşdırılmışdır ki, bu da, ümumilikdə Avropa və Asiya dövlətlərinin inkişafına yeni nəfəs vermişdir. Rize – Artvin Hava Limanı kimi unukal layihənin istifadəyə verilməsi və Azərbaycan Prezidentinin mərasimdə iştirakı, izdiham qarşısında səsləndirilən önəmli bəyanat belə deməyə əsas verir ki, Avrasiyanın önəmli aktorlarına çevrilmiş Türkiyə və Azərbaycan bundan sonra da bölgənin iqtisadi və siyasi mənzərəsinin hər iki ölkənin milli maraqlarına uyğun formalaşmasına xidmət edəcək addımları dəstəkləyəcək, iki qardaş ölkənin sülhpərvər və proqressiv fəaliyyətinə şərait yaradacaq regional əhəmiyyətli layihələri reallaşdırmağa davam edəcək.

***Səbuhi MƏMMƏDOV,***
***"Xalq qəzeti"***